# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 fevral tarixli 73 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qarabağ Universitetinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qarabağ Universitetinin Klinikası" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 fevral tarixli 322 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 fevral tarixli 73 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 205) ilə təsdiq edilmiş "Qarabağ Universitetinin Nizamnaməsi"nin 4.11.6-cı yarımbəndinə "digər qurumların" sözlərindən sonra "("Qarabağ Universitetinin Klinikası" publik hüquqi şəxs istisna olmaqla)" sözləri əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, " 1 " " avqust " 2025-ci il

№ 231